

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 17 mart 2021-ci il №21 (2529) https://mod.gov.az Qiymıəti 30 qəpik


# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar

*Martın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar.*



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev dedi:

- Yenə işğaldan azad edilmiş torpaqlardayam. Bu gün Füzuli-Hadrut avtomobil yolunun təməlini qoyacağam. Bu avtomobil yolunun inşası azad edilmiş ərazilərin bərpası üçün böyük əhəmiyyət daşıyır. Bu, birinci layihə deyil. Artıq bir neçə yol layihəsi icra edilməkdədir. Azad edilmiş torpaqların bərpası başlamışdır. Füzulidən Şuşaya yol çəkilir - Zəfər yolu çəkilir. Eyni zamanda, Bərdə-Ağdam yolunun çəkilişi yaxın gələcəkdə icra ediləcəkdir. Horadizdən Zəngilana qədər yol çəkiləcək. Bir sözlə, müharibədən dörd ay keçməsinə baxmayaraq, böyük quruculuq işləri başlamışdır.

Yenə də azad edilmiş torpaqlarda olarkən, bu dağıntıları görərkən bir daha görürük ki, mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi yerlə-yeksan etmişdir, bizim tarixi irsimizi silmək istəmişdir. Amma buna nail ola bilmədi. Biz bu torpaqlara qayıtmışıq. Qəhrəman xalq kimi, müzəffər dövlət kimi qayıtmışıq. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq.

Bu gün azad edilmiş torpaqlara gələrkən Qaraxanbəyli kəndindən keçdik. Qaraxanbəyli kəndi müharibənin ilk günündə - sentyabrın 27-də azad edildi. Bax, biz məhz buradan, o istiqamətdən öz şərəfli missiyamızı icra etməyə başladıq və düşməni torpaqlarımızdan qovduq. İndi isə quruculuq işləri ilə məşğuluq. İndi isə həyatımızın yeni dövrü başlayır - quruculuq, inkişaf, torpaqlarımızın bərpası dövrü.

* * *

Əvvəlcə Prezident İlham Əliyev Füzuli-Hadrut avtomobil yolunun təməlini qoydu.

Bu yol başlanğıcını Zəfər yolundan götürür və yeni inşa ediləcək Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yoluna birləşir. Uzunluğu 13 kilometr olan bu yol 4 hərəkət zolaqlı olacaq. Yolboyunca avtomobil körpüləri inşa ediləcək.

* * *

Dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Xocavənd rayonuna yola düşdülər.

Prezident İlham Əliyev: Yenə azad edilmiş torpaqlardayıq. Füzulidən Xocavənd rayonuna gedirik. İşğaldan azad edilmiş Xocavənd rayonuna gedirik. Yol boyunca bütün yaşayış məntəqələrinin dağıdılmasının bir daha şahidi oluruq. Bütün kəndlər, şəhərlər tamamilə dağıdılıb. Özü də bu dağıntılar müharibədən sonra baş vermişdir. Müharibə dövründə - birinci Qarabağ müharibəsi dövründə bu qədər dağıntılar olmamışdır, ola da bilməzdi. Məhz işğal dövründə mənfur düşmən bizim şəhərlərimizi bu hala salıb.

Bura Füzuli şəhəridir. Amma şəhərdən əsər-əlamət qalmayıb. Şəhər yoxdur, dağıdılıb. Ermənilər dağıdıblar. İşğal dövründə gəlib bizim binalarımızı söküb, binaların daşlarını, damlarını aparıblar, oğru kimi, talançı kimi. Bunlar, Füzuli şəhərinin qalıqlarıdır. Bu gün də Ermənistanı müdafiə edən xarici dairələr gözlərini açıb baxsınlar onların vəhşiliyinə. Onlar kimi müdafiə edirlər?!

Otuz il torpaqlarımızı işğal altında saxlayan mənfur düşmən bir daşı-daş üstündə qoymayıb. Görün, yollar nə gündədir. Otuz il ərzində bu yollar asfalt görməyib. Onların bütün təbliğatı yalandır, bütün tarixi saxtadır. Özlərini dövlət adlandırırdılar, dırnaqarası "Artsax dövləti" - cəhənnəmə getdi. "Dövlət" idisə, bəs, niyə daş-daş üstə qoyulmayıb? Çünki bilirdilər ki, bu torpaq onların deyil. Bu torpaq azərbaycanlıların torpağıdır.

Bura işğaldan azad edilmiş Xocavənd rayonudur.

Durduğumuz yer Xocavənd rayonunun Edilli kəndidir. Bura da Ağbulaq kəndidir. Qəhrəman Azərbaycan Ordusu qədim Azərbaycan torpağını işğalçılardan azad edib. Burada döyüşlər gedib. Vuruşaraq, döyüşərək düşməni öz doğma torpaqlarımızdan qovmuşuq.

Bura da işğaldan azad edilmiş keçmiş Hadrut rayonunun Düdükçü kəndidir. Görün, necə gözəl mənzərədir.

* * *

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Hadrut qəsəbəsində dövlət bayrağımızı qaldırdı və çıxış etdi.

- Hadrut qəsəbəsi oktyabrın 9-da işğaldan azad edildi. Hadrut qəsəbəsinin azad edilməsi çox uğurlu hərbi əməliyyat nəticəsində mümkün olmuşdur. İlk növbədə, ətraf dağlar götürüldü. Hadrutun ətrafında yerləşən yüksəkliklər Azərbaycan Ordusu tərəfindən götürüləndən sonra faktiki olaraq nəzarət Azərbaycan Ordusuna keçdi və Hadrut qəsəbəsinin işğaldan azad edilməsi artıq qaçılmaz idi. Deyə bilərəm ki, bütövlükdə 44 günlük müharibə zamanı mülki erməni əhali arasında itkilər kifayət qədər az idi. Ona görə ki, Azərbaycan Ordusu heç vaxt mülki əhaliyə qarşı müharibə aparmamışdır. Ermənilərdən fərqli olaraq, biz müharibə dövründə ancaq hərbi birləşmələrə qarşı müharibə aparmışıq, onları məğlub etmişik, onları torpaqlarımızdan qovmuşuq. O ki qaldı mülki əhaliyə, Ermənistanın statistikasına görə, müharibə dövründə təqribən 40-a yaxın mülki şəxs həlak olmuşdur. Onların da böyük əksəriyyəti məhz hərbi əməliyyatlarda iştirak edən mülki şəxslər idi.

Hadrut qəsəbəsinin işğaldan azad edilməsi böyük əhəmiyyətə malik olan bir əməliyyat idi. Çünki Cəbrayıl rayonundan, Cəbrayıl şəhərindən sonra Hadrutun azad edilməsi hərbi əməliyyatlarımızın davam etdirilməsi üçün xüsusi əhəmiyyətə malik olan hadisə idi.

Onu da bildirməliyəm ki, Füzuli şəhəri Hadrutdan sonra azad edilmişdir - oktyabrın 17-də. Ermənistan ordusu bizi məhz digər istiqamətdə gözləyirdi. Ancaq müharibə qaydalarına əməl edərək, strateji planlaşdırmanı düzgün icra edərək biz Cəbrayıldan sonra Hadrutu, ondan sonra Füzulini işğaldan azad etdik.

Onu da deməliyəm ki, artıq Hadrut bizim əlimizdə olan zaman Ermənistan rəhbərliyi, rəsmi şəxslər və eyni zamanda, Ermənistanın dəyirmanına su tökən bəzi xarici jurnalistlər bəyan edirdilər ki, Hadrut ermənilərin əlindədir. Mən bu günə qədər başa düşə bilmirəm ki, Ermənistan rəhbərliyi nə üçün öz xalqını aldadırdı. Biz dəqiq bilirdik ki, Hadrut bizdədir. Biz bilirdik ki, artıq Ermənistan ordusu burada tamamilə məhv edilib və sağ qalan erməni hərbçilər buradan qorxaqcasına qaçıb dağlarda gizlənmişdilər. Hadrut tam bizdə idi. Ancaq bəzi xarici jurnalistlər bildirirdilər ki, guya Hadrut ermənilərin əlindədir.

Hadrutun azad edilməsindən sonra biz Şuşaya istiqamət götürdük. Şuşa əməliyyatının uğurlu keçirilməsi üçün məhz Hadrutu azad etmək önəmli idi. Yenə də düşmənin bizi gözləmədiyi istiqamətdən Şuşaya yaxınlaşdıq. Dağlardan, dərələrdən, sıldırım qayalardan keçərək, o qayaları dırmaşaraq biz Şuşanı işğalçılardan azad etdik. Ona görə Hadrut əməliyyatı dünyanın hərb elmində xüsusi yer tutacaq.

Bütövlükdə 44 günlük şanlı müharibəmiz, bizim Zəfərimiz bu gün dünyanın aparıcı ali məktəblərində öyrənilir və artıq hərbi ekspertlər, mütəxəssislər, hətta bir çox ölkələrin siyasətçiləri bizim müharibədən bəhs edərək bildirirlər ki, bu, XXI əsrin müharibəsidir. Azərbaycan müharibədə Zəfər çaldı, düşməni əzəli torpaqlarımızdan qovdu, tarixi ədaləti bərpa etdi. Hadrut qəsəbəsi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun mərkəzi sayılırdı. Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv olunandan sonra keçmiş vilayətin Martuni və Hadrut rayonları birləşdirildi və Xocavənd rayonu yaradıldı. Bu əraziyə qədim tarixi adı - Xocavənd adı qaytarılmışdır. Müharibə dövründə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Martuni rayonunun 50 faizdən çox hissəsi və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun 100 faiz ərazisi işğalçılardan azad edilmişdir. Bəziləri müharibənin yekunlarını şərh edərkən deyirlər ki, Azərbaycan yeddi rayonu azad edib, bu, belə deyil. Biz yeddi rayonu, Şuşa şəhərini, Suqovuşan qəsəbəsini, Talış qəsəbəsini, keçmiş Hadrut rayonunu, keçmiş Martuni rayonunun böyük hissəsini azad etmişik və tarixi ədaləti bərpa etmişik. Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərkən tarixi nailiyyətlərə imza atmışdır.

**(Ardı 2-ci səhifədə)**

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar



(Əvvəli 1-ci səhifədə)

Biz xalqımızın yeni tarixini yazdıq, şanlı qəhrəmanlıq tarixini yazdıq və azad edilmiş torpaqlarda bu gün böyük quruculuq işləri aparılır, böyük infrastruktur layihələri icra edilir. Bu gün Bakıdan gələrkən, yenə də dağıdılmış Füzuli şəhərindən keçərkən bir daha gördüm ki, erməni vəhşiliyi hansı fəlakət törədib. Bu gün onları müdafiə edən, bu gün onların arxasında dayanan bəzi xarici dairələr gözlərini açıb görsünlər erməni vəhşiliyi nə günə salıb bizim şəhərlərimizi. Bizim bütün şəhərlərimiz dağıdılıb, bütün kəndlərimiz dağıdılıb, tarixi abidələr dağıdılıb, məscidlər dağıdılıb, qəbirlər dağıdılıb, misli görünməmiş vandallıq, barbarlıq törədilib. Biz isə ancaq öz torpaqlarımızı azad etmişik. Bax, bu qəsəbədə qanunsuz olaraq Ermənistandan və xarici ölkələrdən ermənilər gətirilib zorla məskunlaşdırılıb. Amma bu qəsəbə salamatdır, bir bina da dağıdılmayıb, bir bina da yandırılmayıb. Budur, Azərbaycan Ordusunun yanaşması, budur, bizim mənəvi kodeksimiz. Ermənilər nə ediblər? Bütün binalarımızı dağıdıblar, məscidlərimizi dağıdıblar. Məscidlərdə heyvan saxlayıblar. Bizim müqəddəs abidələrimizi təhqir ediblər. Azərbaycanlıların tikdirdikləri, - ermənilər orada qanunsuz yaşayıblar, - o evləri noyabrın 10-dan dekabrın 1-nə qədər yandırıblar, dağıdıblar, meşələri qırıblar. Su elektrik stansiyalarını dağıdıblar. Bax, fərq bundadır. Azərbaycan əsgəri yüksək mənəvi keyfiyyətlərə malik olan əsgərdir və əsgərə, bütün hərbçilərə verilən təlimat yerinə yetirildi. Mən demişdim ki, biz mülki əhali ilə heç vaxt müharibə aparmamışıq və bunu indi hər kəs görür. Mən demişdim ki, Ermənistan rəhbərliyi bizə tarix versin, bizim torpaqlarımızdan nə vaxt çıxır və biz müharibəni dayandırmağa hazırıq, bunu da etdik. Bu gün buraya bu torpaqların sahibləri kimi qayıtmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Bu gün mən Müzəffər Ordumuzun Ali Baş Komandanı kimi Hadrut qəsəbəsində milli bayrağımızı qaldırdım. Bu bayraq burada əbədi dalğalanacaq. Biz azərbaycanlılar bundan sonra öz dədə-baba torpaqlarımızda əbədi yaşayacağıq. Bütün dağılmış şəhərləri, kəndləri yenidən quracağıq, həyat qayıdacaq, insanlar qayıdacaq və biz mızın böyüklüyünü göstərəcəyik. Xocavənd bizimdir, Qarabağ Azərbaycandır!

* * *

Sonra Prezident İlham Əliyev Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolunun təməlini qoydu.

Bu yol başlanğıcını Hadrut yaşayış məntəqəsindən götürməklə və Cəbrayıl rayonundan keçməklə Şükürbəyli kəndində Hacıqabul-Mincivan-Zəngəzur



dəhlizi avtomobil yoluna birləşir. Uzunluğu 43 kilometrdir. Dörd hərəkət zolaqlı bu yolboyunca avtomobil körpüləri tikiləcək.

* * *

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva keçmiş Hadrut Rayon Partiya Komitəsinin binasında oldular.

Dövlətimizin başçısı dedi: Bu bina keçmiş Hadrut Rayon Partiya Komitəsinin binasıdır. Qanunsuz rejim burada özləri üçün administrasiya yaratmışdı. Bu bina Azərbaycan vəsaiti hesabına tikilmişdir və onu biz qaytarmışıq. Hadrut bizimdir!

Bu sözlər köhnə əlifba ilə yazılıb: "Kolxozların torpaqlardan əbədilik faydalanması üçün". Bu, 1939-cu ilə qədər yazılıb. 1939-cu ildə əlifbamızı dəyişdirdilər. Bu, tarixi sənəddir.

* * *

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Hünərli kəndindəki Alban məbədi ilə tanış oldular.

Prezident İlham Əliyev dedi:

- Bura qədim Alban məbədidir, Alban kilsəsidir, Hünərli kəndində yerləşir. Ermənilər bu kilsəni də erməniləşdirmək istəmişlər və burada erməni dilində yazılar yazmışlar, ancaq buna nail ola bilməmişlər. İndi əgər bu, erməni kilsəsi olsaydı, bunu belə vəziyyətdə qoyardılarmı? Tövləyə oxşayır, elə bil ki, tövlədir, zibilxanadır. Bu, bizim qədim tarixi abidəmizdir, udi qardaşlarımızın məbədidir. Onlar buraya da gələcəklər. Ermənilər necə ki, bizim məscidlərimizi təhqir ediblər, qədim Alban məbədini də təhqir etmişlər. Amma biz bərpa edəcəyik. Bütün bu yazılar saxta yazılardır, sonradan yazılmış yazılardır. Onlar bizim qədim torpaqlarımızda özləri üçün saxta tarix yaradıblar. Amma buna nail ola bilməyiblər, biz onları ifşa etmişik. Bu kilsənin - alban məbədinin bu vəziyyətdə olması bir daha erməni saxtakarlığını göstərir. Erməni kilsəsi olsaydı, bunu təmir etdirərdilər. Sonra da bəziləri bizə irad tuturlar ki, biz xristian abidələrinə yaxşı baxmırıq. Bunu ermənilər bu günə salıblar.

İndi gəlsinlər, baxsınlar Azərbaycanın müxtəlif yerlərində xristian abidələri necə qorunur. Bu qədim Alban kilsəsini görərlər bir müddətdən sonra biz necə təmir etdirəcəyik. Azərbaycan ərazisində bütün dinlərin məbədləri dövlət tərəfindən qorunur, dövlət tərəfindən tikilir və bütün dünya bunu bilir. Ermənilərin vəhşiliyini dünya bilməlidir, görməlidir bizim məscidlərimiz nə gündədir. Azad edilmiş torpaqlarda 67 məscid var idi, cəmi ikisi qalıb, yarıdağılmış. Özü də onlardan müxtəlif məqsədlər üçün istifadə ediblər. Alban kilsəsini də bu günə qoyublar. Bəlkə burada da heyvan saxlayıblar, burada da dəmir-dümür saxlayıblar, orada o dəmir-dümürlərin bir hissəsi qalıb. Ona görə hər kəs bunu görməlidir, bilməlidir. Əgər kimsə bundan sonra bizə qarşı hansısa əsassız ittiham irəli sürmək istəsə, o, cavabını alacaq, necə ki, bu günə qədər alıb.

Baxın, buraya baxın, erməni kilsəsi olsaydı, bunları yazardılar? Yazardılar bunları? "Kamo", "Artur", nə bilim, "Marta". Öz kilsələrini belə təhqir edərdilər? Bax, bu daşların hamısı saxtadır. Bu, erməni saxtakarlığıdır. İçəridə də, gəlin buraya, əgər bu, erməni kilsəsi olsaydı, bunu yazardı - "İqor", "Aşa"? Uçurublar, dağıdıblar, qapını da yandırıblar.

* * *

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Tuğ kəndində oldular.

Prezident İlham Əliyev: Tuğ kəndinə gəlmişik. Tuğ kəndi qədim Azərbaycan kəndidir.

Birinci xanım Mehriban Əliyeva: Budur məktəbin binası?

Prezident İlham Əliyev: Ermənilərin dağıtdıqları Tuğ kəndinin məktəbi. Görün, nə günə qoyublar. Sonra da deyirdilər ki, Tuğ kəndi erməni kəndidir. Erməni kəndi olsaydı, bunu dağıdardılar? Bura qədim Azərbaycan torpağıdır. Tuğ kəndi həmişə Azərbaycan kəndi olub, bundan sonra da olacaq.

Tuğ kəndində azərbaycanlıların ermənilər tərəfindən dağıdılmış evləri. Buradan bütün dağıntılar yaxşı görsənir.

Təbii ki, Tuğ kəndinin sakinləri öz evlərini tanıyırlar. Əminəm ki, yaxın gələcəkdə Tuğun sakinləri öz doğma kəndlərinə qayıdacaqlar.

Görün, Azərbaycan necə də gözəldir. Qarabağ necə də gözəldir. Dağıdılmış bütün kəndləri, şəhərləri bərpa edəcəyik.

Dövlətimizin başçısı və xanımı Tuğda Alban məbədində oldular.

Prezident İlham Əliyev: Bunlar növbəti erməni saxtakarlığıdır. Sonradan gətirilmiş daşlardır. Bu məbədə heç bir aidiyyəti yoxdur.



Bura qədim Alban məbədidir. Bu məbəd də udi qardaşlarımıza qaytarılacaqdır. Ermənilər bunu da erməniləşdirmək istəyiblər, amma alınmayıb və alınmayacaq. Bundan sonra Azərbaycan dövləti bu Alban məbədini qoruyacaq.

* * *

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Azıx kəndinə yola düşdülər.

Dövlətimizin başçısı: Tuğ kəndindən çıxdıq, indi gedirik Azıx kəndinə. Azıx da qədim Azərbaycan kəndidir, qədim yaşayış yeridir. Buraların təbiəti də çox gözəldir.

Azıx kəndinə yaxınlaşırıq. Qarabağın gözəl mənzərəsi. Bura Azıx kəndinin ərazisidir.

Azıx mağarasına gedirik, hələ yolumuz uzaqdır.

Azıx mağarasının girişindəyik. Təxminən 800 pillə qalxmışıq. Yaxşı idman etmişik, fiziki formamızı göstərmişik. İndi girəcəyik Azıx mağarasının içinə. Bu mağaranı azərbaycanlı alim, arxeoloq Məmmədəli Hüseynov 1960-cı ildə aşkar etmişdir və ondan sonra burada tədqiqatlar aparılmışdır. Bu, dünyanın ən qədim insanının yaşayış yerlərindən biridir, Azərbaycan tarixinə məxsusdur, bizim tarixi sərvətimizdir. Ermənistan bu mağarada qanunsuz olaraq işlər aparmışdır, xaricdən qanunsuz olaraq alimlər gətizdirmişdir. Onlar bu mağaraya, bizim tarixi irsimizə böyük ziyan vurmuşlar. Onlar bu ziyanın hamısını ödəyəcəklər. Onları məcbur edəcəyik.

Azıx mağarasını azərbaycanlı alim aşkarlayıb. Azıx mağarası Azərbaycan ərazisində yerləşir. Bundan sonra azərbaycanlı alimlər və onların dəvəti ilə gələcək xarici alimlər burada qanuni yollarla tədqiqatlar aparacaqlar.

Buradan isə gözəl mənzərə açılır. Azıx kəndi, bax, oradadır. Bax, buradan daha yaxşı çəkmək olar. Biz bu zirvəni qət etmişik. Bütün zirvələri qət edəcəyik. Elə zirvə yoxdur ki, onu biz qət edə bilməyək. Gəlin, bir yerdə deyək: "Azıx Azərbaycandır!", "Qarabağ Azərbaycandır!".

# Müdafiə Nazirliyinin rəhbərliyi Bərdə şəhərindəki Şəhidlər xiyabanını ziyarət edib



Xalqımızın milli-mənəvi dəyərlərini və qədim ənənələrini özündə əks etdirən Novruz bayramı ərəfəsində, Torpaq çərşənbəsi ilə əlaqədar Müdafiə Nazirliyinin rəhbər heyəti Bərdə şəhərindəki Şəhidlər xiyabanını ziyarət edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə gül dəstələri qoyulub.

# Azərbaycan Ordusunun hərbi qulluqçuları şəhid olan qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edib

Müdafiə nazirinin tapşırığına əsasən Azərbaycan Ordusunun hərbi qulluqçuları Novruz bayramı ərəfəsində, Torpaq çərşənbəsi ilə əlaqədar daimi dislokasiya məntəqələrinə yaxın ərazilərdə yerləşən Şəhidlər xiyabanlarını ziyarət edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə gül dəstələri qoyulub.



# Müdafiə naziri təlimlərin gedişi barədə məruzələri dinləyib





Müdafiə naziri general-polkovnik Zakir Həsənov qoşun növlərinin komandanları, birlik komandirləri və müvafiq vəzifəli şəxslərin əməliyyat-taktiki təlimlərin gedişi barədə maket üzərində məruzələrini dinləyib.

Eyni zamanda, təlimlərin planına uyğun olaraq ərazinin kəşfi nəticəsində əldə olunan məlumatlar əsasında maket üzərində tapşırıqlar, qoşunların qarşılıqlı əlaqədə fəaliyyətlərinin təşkili dəqiqləşdirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Müdafiə naziri qoşunların idarə olunması üzrə müvafiq tapşırıqlar verib.

# Naxçıvan Qarnizonu Qoşunlarında təlim və məşğələlər keçirilib

*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, "Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na əsasən komanda-qərargah təlimi keçirilib.*

Komanda-qərargah təlimində Naxçıvan Qarnizonu Qoşunları müxtəlif döyüşə hazırolma dərəcələrinə gətirilib, birləşmə və hissələr "Həyəcan" siqnalı ilə qaldırılaraq təlim rayonuna çıxarılıb. Müxtəlif dərəcəli döyüşə hazırolma vəziyyətinə gətirilmə zamanı şəxsi heyətin tapşırıqları operativ yerinə yetirməsi məşq etdirilib.

Təlimin sonuncu mərhələsində birləşmə və hissələrin fəaliyyəti, qərarların və hesablamaların reallığı Naxçıvan Qarnizonunun Simulyasiya Mərkəzindəki kompüterlər vasitəsilə qiymətləndirilib. Komandir heyətinin yaranmış taktiki şəraitə uyğun qısa müddətdə qərar qəbul edib yuxarı qərargaha məruzə etməsi, tabelikdə olanlara çatdırması, döyüşün təşkili üzrə bacarıq və vərdişlərinin təkmilləşdirilməsi məqsədi ilə kompüterlər üzərində məşqlər keçirilib.



Təlimin yekununda icra edilmiş fəaliyyətlərin təhlili aparılan zaman qarşıya qoyulmuş məqsədlərə nail olunduğu bildirilib, təlimə cəlb olunan birləşmə və hissələrin komandir və qərargahlarının fəaliyyətləri Qarnizonun koordinasiya qrupu tərəfindən qiymətləndirilərək aşkar edilən nöqsanların aradan qaldırılması istiqamətində verilmiş tapşırıqlar birləşmə və hissə komandirləri ilə dəqiqləşdirilib.

* * *

Əlahiddə Ümumqoşun Ordunun tank birləşmələrində məşğələlər keçirilir.

Əlahiddə Ümumqoşun Ordunun tankçıları gecə və gündüz şəraitində keçirilən məşğələlərdə peşəkarlıq nümayiş etdirirlər.

Əlahiddə Ümumqoşun Ordunun tank birləşmələrində keçirilən məşğələlərdə əsas diqqət şəxsi heyətin çətin relyefli ərazilərdə zirehli tank texnikalarını idarə edərək döyüş meydanında hədəfləri məhv etmək vərdişlərinin təkmilləşdirilməsinə yönəldilib.

Təlim mərkəzlərində sürücülük və atəş bacarıqları yoxlanılan heyətlər zirehli texnikanın ərazidə təbii və süni maneələri dəf etməklə sürülməsini icra edir, müxtəlif manevrlər və atışlar həyata keçirirlər.

Plana uyğun olaraq gecə vaxtı çətin relyef və məhdudgörmə şəraitində təşkil olunan məşğələlərdə ekipajların müasir tank texnikaları ilə minalı sahələrdən, süni və təbii maneələrdən keçməklə atəş tapşırıqlarını yerinə yetirmələri praktiki məşq etdirilir.

# Azərbaycan Ordusunun əməliyyat-taktiki təlimləri davam edir





*Qoşunların 2021-ci ilin döyüş hazırlığı planına uyğun olaraq, Azərbaycan Ordusu əməliyyat-taktiki təlimlərinə başlayıb.*

Müdafiə nazirinin rəhbərliyi ilə keçirilən təlimə 10.000 nəfərədək şəxsi heyət, 100-dək tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatanlar, 30-dək hərbi aviasiya və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları cəlb olunub.



Dağlıq-meşə və çətin relyefli ərazilərdə keçirilən təlimlərdə Vətən müharibəsində qazanılan döyüş təcrübəsi nəzərə alınmaqla əsas diqqət qoşunların idarəolunması, döyüşə hazırolma vəziyyətinə gətirilməsi və yenidən qruplaşması, o cümlədən ümumqoşun birlikləri, Raket və Artilleriya Qoşunları, aviasiya, Xüsusi Təyinatlı Qüvvələr arasında döyüş uzlaşması və qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsinə yönəldilib.

Əməliyyat-taktiki təlimlərin rəhbərliyi, eləcə də Azərbaycan Ordusunun təlimlərə cəlb edilən şəxsi heyəti və xüsusi texnikası təlim bölgəsinə yola düşüb.

Yerdən və havadan müşayiət ediləcək kolonların hərəkət marşrutlarında komendant xidməti təşkil olunub.

Martın 18-dək davam edəcək təlimlərdə qoşunlar terrorçu dəstələr (qruplar), həmçinin qanunsuz silahlı qruplaşmalar ilə mübarizə və antiterror əməliyyatları üzrə tapşırıqları icra edəcək.

Əməliyyat-taktiki təlimlərin planına əsasən həyəcan siqnalı ilə qaldırılan qoşunlar, komanda idarəetmə məntəqələri, döyüş və ehtiyat hərbi hissələri əməliyyat təyinatı rayonlarına çıxarılıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qoşunların yerdəyişməsi tələblərə uyğun olaraq gizli və operativ şəkildə həyata keçirilib. Şəxsi heyətin və hərbi texnikanın bütün hərəkəti komendant xidməti tərəfindən tənzimlənib.

Əməliyyat-taktiki təlimlərində plana uyğun olaraq qoşunların fəaliyyətləri ilə bağlı verilən tapşırıqlar səhra idarəetmə məntəqələrində xəritələr üzərinə işlənilib.

Mövcud vəziyyətə uyğun hazırlanan məruzələr sərəncam şəklində icra edilməsi məqsədilə müasir rabitə və avtomatlaşdırılmış idarəetmə sistemləri vasitəsilə komandir-rəis heyətinə çatdırılıb.

Ehtiyatda və mərkəzi tabelikdə olan birləşmələrin səhra idarəetmə məntəqələri təyin olunmuş rayonlara çıxarılıb.

Əməliyyat-taktiki təlimlərin niyyətinə uyğun olaraq daimi dislokasiya məntəqələrini həyəcan siqnalı ilə tərk edən raket və artilleriya bölmələri təyin edilmiş marşrutlarla hərəkət edib.

Əməliyyat-taktiki təlimlərin planına uyğun olaraq qoşunlar cəmləşmə rayonlarını tutub və qruplaşmalar yaradılıb.

Qoşunların komanda idarəetmə məntəqələrində döyüş fəaliyyəti təşkil olunub.

Əməliyyat-taktiki təlimlərində qoşun növlərinin komandanları, birlik komandirləri və müvafiq vəzifəli şəxslər tərəfindən təlimlərin gedişi barədə məruzələr edilib.



Məruzələr dinlədildikdən sonra qoşunların idarə olunması üzrə müvafiq tapşırıqlar verilib.

Əməliyyat-taktiki təlimlər çərçivəsində pilotsuz uçuş aparatlarının (PUA) heyətləri havadan müxtəlif hündürlüklərdə kəşfiyyat apararaq əldə edilən məlumatları idarəetmə məntəqələrinə ötürüb.

PUA heyətləri, həmçinin şərti düşmənin mövqelərinin, o cümlədən müdafiəsinin dərinliyindəki hədəflərin aşkar edilməsi və müvafiq məlumatların idarəetmə məntəqələrinə göndərilməsi üzrə tapşırıqları icra edib.

Təlimin növbəti mərhələsində ərazidə qərarın dəqiqləşdirilməsi və qoşunların qarşılıqlı fəaliyyətinin təşkili icra olunub.

Əməliyyat-taktiki təlimləri davam edir.

# "Israel HaYom" qəzeti: Azərbaycanın hərbi təlimlərində İsrail silahı xüsusi yer tutacaq

*Azərbaycan Ordusu silahlı qüvvələrin müxtəlif növlərinin iştirakı ilə iri hərbi təlimlərə başlayıb. Bu təlimlərdə Bakının sərəncamında olan məşhur Türkiyə və İsrail silahlarından istifadə olunmasına xüsusi diqqət yetiriləcək.*

AZƏRTAC xəbər verir ki, israilli məşhur jurnalist Din Şmuel Elmasın adı çəkilməyən bir hərbi mənbəyə istinadla yazdığı və İsraildə çıxan nüfuzlu ivritdilli "Israel HaYom" qəzetində dərc edilmiş məqaləsi bu mövzuya həsr edilib.

Məqalənin müəllifi vurğulayır ki, hərbi təlimlərdə İsrail istehsalı olan müxtəlif hərbi vasitələrdən istifadə ediləcək.

Din Şmuel Elmasın fikrincə, Azərbaycan Ordusu hərbi hava qüvvələri səviyyəsində "Aeronautics" şirkətinin istehsal etdiyi "Orbiter" silahlarının müxtəlif modellərindən istifadə edəcək.

Adının çəkilməsini istəməyən hərbi mənbə "Israel HaYom" nəşrinə müsahibədə deyib: "Kəşfiyyat məlumatlarının toplanması üçün uzun müddət havada qalması nəzərdə tutulan "Hermes-450" və "Hermes-900" pilotsuz uçuş aparatlarından, habelə ən uğurlu vasitələrindən biri - Vətən müharibəsində Azərbaycanın tətbiq etdiyi, IAI şirkətinin istehsalı olan "Harop" PUA-dan istifadə ediləcək. Bizim istifadə edəcəyimiz başqa silahlar da var. Onlar ölkələrimiz arasında həqiqi dostluğun rəmzinə çevrilib".

Məqalə müəllifi vurğulayır ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbərliyi altında keçiriləcək təlimlərdə 10.000-dən çox əsgər, 100-ə yaxın tank və zirehli texnika, təqribən 200 raket və artilleriya qurğusu, müxtəlif raket kompleksləri, minaatanlar, qırıcı təyyarələr, habelə müxtəlif tipli pilotsuz uçuş aparatları iştirak edəcək.

Müəllif daha sonra yazır: "İrimiqyaslı hərbi təlimlər Vətən müharibəsi dövründə Azərbaycan əsgərləri və zabitləri üçün əla təcrübənin bir hissəsi olacaq. Məlum olduğu kimi, bu müharibə Azərbaycan üçün böyük uğurla başa çatdı, lakin Qələbədən arxayınlaşmayan Azərbaycan Ordusu öz Silahlı Qüvvələrini daha da təkmilləşdirməyə çalışır. Hərbi təlimlər çərçivəsində müxtəlif bölmələr - artilleriya, hərbi hava qüvvələri və xüsusi təyinatlı qoşunlar arasında koordinasiya və hərtərəfli döyüşün sürətli təşkili üsulları öyrəniləcək. Təlimlərin cümə axşamı başa çatacağı gözlənilir.

İsrail-Azərbaycan münasibətləri üzrə ekspert, "İsraildə Azərbaycan Evi"nin rəhbəri Arye Qut "Israel HaYom" qəzetinə müsahibəsində deyib: "Cənubi Qafqaz regionunda Azərbaycanın çoxvektorlu xarici siyasətində İsrail dövləti xüsusi yer tutur. Bir neçə il bundan əvvəl İsrailin Baş naziri Benyamin Netanyahunun Azərbaycana tarixi rəsmi səfəri və Vətən müharibəsində İsrailin real texnoloji və hərbi-texniki dəstəyi bir daha təsdiq etdi ki, İsrail ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır.

Ermənilər həsəd apara, təxribatlar və əsassız informasiya yayımı ilə məşğul ola bilərlər, lakin indi tarixi fakt belədir ki, İsrailin müdafiə şirkətləri Azərbaycanda hərbi sənaye yaradılmasında fəal iştirak ediblər və bu iştirak davam edir.

İsrail ilə səmimi və uzunmüddətli münasibətlər Azərbaycan üçün çox vacibdir, İsrail dövləti də Azərbaycan ilə öz münasibətlərini qoruyub saxlayır və yüksək qiymətləndirir. Məhz bu səbəbdən həmin münasibətlər strateji xarakter daşıyır. İsrail Cənubi Qafqazda özünün mühüm geosiyasi və geostrateji tərəfdaşının qələbəsinə həmişə sevinib".

# "Sönməz bu şəfəqlərdə üzən al bayraq!"

## Türkiyə Respublikasının Dövlət Himninin - "İstiqlal Marşı"nın 100 illiyi ilə bağlı Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində tədbir keçirilib



*Türkiyə Respublikasının Dövlət Himninin - "İstiqlal Marşı"nın 100 illiyi ilə bağlı Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində "Sönməz bu şəfəqlərdə üzən al bayraq!" ("Sönmez bu şafaklarda yüzen al sancaq!") adlı tədbir keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbir başlamazdan öncə hər iki dövlətin qurucularının, qardaş ölkələrin azadlığı, istiqlaliyyəti, ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin ifasında qardaş respublikaların dövlət himnləri səsləndirilib.

Layihənin müəllifi Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani "İstiqlal Marşı"nın yaranma tarixi barədə ətraflı məlumat verib, videoçarx nümayiş etdirilib.

Nəzərə çatdırılıb ki, Türk Qurtuluş savaşının əvvəllərində İstiqlal hərbinin milli ruh içərisində əldə edilməsi imkanlarını təmin etmək məqsədilə Qərb Cəbhəsi komandanı İsmət İnönü dövlət himni üçün şeirin yazılması ilə bağlı xalqa səslənib və şeiri məqbul görülən şəxsə 500 türk lirəsi mükafat vəd edilib. 1921-ci ildə keçirilən müsabiqəyə ümumilikdə 724 şeir təqdim edilsə də, heç biri himn üçün qəbul edilməyib.

Qeyd olunub ki, bundan sonra böyük istiqlal şairi Məhmət Akif Ərsoya müraciət olunub. Himnin mətni üçün qalib gələn şairə pul mükafatı vəd edildiyinə görə əvvəlcə yarışmaya qatılmayan M.A.Ərsoy sonralar "Bizim Qəhrəman Ordumuz" adlı şeirini müsabiqəyə təqdim edib və həmin şeir parlamentdə dinlənildikdən sonra böyük rəğbət qazanaraq 12 mart 1921-ci ildə qəbul edilib.

M.A.Ərsoy müsabiqənin qalibi üçün nəzərdə tutulmuş mükafatdan imtina edərək bu vəzifəni ordu və millət üçün yerinə yetirdiyini bildirib.

Tədbirdə "İstiqlal Marşı"nın musiqisinin Osmanlı sarayında ilk türk skripkaçı kimi yetişdirilən Osman Zəki Üngör tərəfindən yazıldığı vurğulanıb.

100 ildir ki, "İstiqlal Marşı" qardaş ölkənin dövlət və hərbi tədbirlərində, eləcə də milli festivallarda, bayramlarda, əlamətdar-tarixi günlərdə, idman tədbirlərində və məktəb mərasimlərində böyük coşqu ilə səslənməkdədir.

Bakının bolşevik-daşnak işğalından azad olunmasının 100 illiyi və Vətən müharibəsində qazanılan möhtəşəm qələbəyə həsr olunmuş Zəfər paradında Azərbaycan Respublikasının Dövlət Himni ilə yanaşı, Türkiyə Respublikasının "İstiqlal Marşı" da hər iki respublikanın xalqlarının - "Bir millət, iki dövlət"in qardaşlığının əbədi və sarsılmazlığının rəmzi kimi səsləndirilib.



Ankara Hərbi Musiqi məktəbinin məzunu mayor Fariz Məmmədzadənin dirijorluğu ilə hərbi orkestr Azərbaycan və Türkiyənin hərbi marşlarından nümunələr ifa edib.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyətinin təqdim etdiyi ədəbi-bədii kompozisiya tamaşaçılarda böyük maraq oyadıb.

15 ildən çoxdur ki, Bakı Bələdiyyə Teatrının repertuarından düşməyən, respublikamızın bütün bölgələri ilə yanaşı, Türkiyənin Ankara, Qars, Ərzurum, Yozqat, İğdır və başqa şəhərlərində uğurla nümayiş etdirilən A.Qurbaninin eyniadlı tarixi pyesi əsasında hazırlanan "Türk Sancağı" tamaşasından fraqmentlər göstərilib.

Tədbir "İstiqlal Marşı"nın iştirakçılar tərəfindən birgə ifası və Azərbaycan-Türkiyə qardaşlığını tərənnüm edən videogörüntülərin nümayişi ilə sona yetib.

## "Tək millət, tək ürək" Beynəlxalq Humanitar Qardaşlıq Platforması indiyədək 2 minədək şəhid və qazi ailəsinə dəstək olub

Azərbaycanda sosial layihə kimi tanınan "Tək millət, tək ürək" Beynəlxalq Humanitar Qardaşlıq Platforması bütün istiqamətlərdə şəhid və qazi ailələrinə Türkiyənin yardımını həyata keçirən birləşdirici platforma olaraq işini uğurla davam etdirməkdədir.

AZƏRTAC xəbər verir ki, bu sözləri aksiyanın təşəbbüskarı, Milli Məclisin deputatı Ramil Həsən martın 15-də humanitar platformanın 100-cü günü ilə əlaqədar keçirilən mətbuat konfransında deyib.

O bildirib ki, ötən ilin dekabrında həyata keçirilən aksiya çərçivəsində bu günə qədər 31 rayonda ümumilikdə 2000-dək şəhid və qazi ailəsi ziyarət edilib, qardaşlıq payları çatdırılıb, ağır dönəmdə onlara mənəvi dəstək verilib.

## Hindistan Azərbaycandan hərbi xərcləri ağıllı idarə etməyi öyrənə bilər

Son bir neçə gündə Hindistanın müdafiə sahəsinə ayırdığı vəsait yenidən diqqət mərkəzində olub.

Bu barədə AZƏRTAC "The Print" nəşrinə istinadən xəbər verir.

Hindistanın keçmiş Ordu Komandanı, general Ved Prakaş Malik nəşrə açıqlamasında deyib ki, ölkəsi müdafiəyə çox pul xərcləmir. Keçmiş ordu rəsmisinin sözlərinə görə, Çinin müdafiə büdcəsi Hindistanın müdafiə üçün ayırdığı xərcin təxminən dörd qatına bərabərdir. Odur ki, rəsmi Dehlinin müdafiə büdcəsi ÜDM-in ən azı 3 faizinə bərabər olmalıdır.

Qeyd olunub ki, Hindistanın 2021-ci ilin dövlət büdcəsində Silahlı Qüvvələr üçün ayrılan vəsait ötən ilə nisbətən 1,5 faiz artıb, hazırda ümumi müdafiə büdcəsi ÜDM-in 2,14 faizini təşkil edir.

Nəşr bildirib ki, Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (Stockholm International Peace Research Institute - SIPRI) rəqəmlərinə görə, 2009-2018-ci illər arasında Azərbaycan müdafiə üçün təxminən 24 milyard ABŞ dolları xərcləyib. Eyni dövrdə Ermənistanın müdafiə xərcləri 4 milyard ABŞ dollarından bir qədər çox olub.

"Azərbaycanın atdığı başqa bir ağıllı addım təkcə silah arsenalını artırmaq olmadı, həm də mənbə siyahısını şaxələndirmək oldu. Lakin, Ermənistan ancaq silah almaqda əsas diqqətini Azərbaycana da silah tədarük edən Rusiyaya yönəltdi. Bu zaman, Azərbaycan ağıllı davranaraq satınalmalarını şaxələndirdi və Rusiya ilə bərabər Türkiyədən, İsraildən də müdafiə sənayesi məhsullarını tədarük etdi.

Böyük Britaniyanın Müharibə və Sülh Araşdırmaları İnstitutunun (IWPR) məlumatlarına görə, İsrail 2015-2019-cu illərdə silah idxalına görə Azərbaycanın hərbi sahədə ən böyük ticarət tərəfdaşı olub. Bu dövrdə İsrailin Azərbaycanın silah idxalındakı payı 60 faiz, Rusiyanın 31 faiz, Türkiyənin isə 3,2 faizdir. Qalan 5,8 faiz Ukrayna, Belarus, Pakistan və Çinin payına düşür.

Bu, Azərbaycanın 44 günlük Vətən müharibəsinin gedişatında silah alışının şaxələndirilməsi hesabına, Türkiyənin "Bayraktar TB2" dronu və İsrailin "Heron-TP" dronu kimi silahlardan istifadə etməklə öz xeyrinə dəyişdi".

Vurğulanıb ki, Azərbaycan hökuməti silah alışı üçün tərəfdaş seçərkən mövcud siyasi müttəfiqlərə üstünlük verir. Beləliklə, Azərbaycan üçün 2010-2015-ci illərdə Rusiya, 2015-2019-cu illərdə İsrail, 2020-ci ildə Türkiyə əsas tərəfdaş olub:

"Çox aydındır ki, əsas olan çox xərcləmək deyil, əsas olan büdcənin imkanları çərçivəsində vəsaiti ağıllı xərcləməkdir".

# “Hərbi aşpaz hazırlığı” kursunun buraxılış mərasimi keçirildi





*"N" hərbi hissəsində Müdafiə nazirinin təsdiq etdiyi 2021-ci il üçün fəaliyyət planına əsasən, 13-cü "Hərbi aşpaz hazırlığı" kursunu müvəffəqiyyətlə bitirən məzunların buraxılış mərasimi keçirildi.*

Mərasimdə əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Müdafiə Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsinin Ərzaq Xidməti rəisi polkovnik Eldəniz Yəhyayev çıxış edərək kursu müvəffəqiyyətlə bitirən məzunları təbrik etdi. Zabit bildirdi ki, aşpazlıq sahəsi ordumuzda da ən vacib amillərdən biridir. "Hərbi aşpaz vəzifəsi hər birinizdən ikiqat məsuliyyət tələb edir. Çünki yüzlərlə Vətən qoruyucusunun düzgün və sağlam qidalanması məhz siz aşpazlardan asılıdır. Mütəmadi olaraq keçirilən kursların əsas məqsədi birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində çalışan hərbi və mülki aşpazların nəzəri bilik və praktiki bacarıq səviyyələrini artırmaqdır. Əminliklə söyləyə biləm ki, ordu sıralarında xidmət edən hər bir aşpaz öz təcrübəsi və peşəkarlığı ilə göstərilən etimadı doğruldub. Məhz 44 günlük Vətən müharibəsi bunun bariz nümunəsidir. Onlar Vətən müharibəsində üzərlərinə düşən tapşırığın öhdəsindən layiqincə gələrək, müharibənin ən qızğın vaxtlarında cəsur döyüşçülərimizə yeməklərin hazırlanmasında və vaxtında çatdırılmasında əllərindən gələni əsirgəmədilər. Əminəm ki, sizlər də kurs ərzində öyrəndiklərinizi hərbi qulluqçularımıza yeməklərin keyfiyyətli və dadlı hazırlanmasında tətbiq edəcəksiniz. İnanıram ki, öz bilik və bacarıqlarınızı daim təkmilləşdirəcək, vəzifələrinizin öhdəsindən bacarıqla gələcəksiniz. Hər birinizə bundan sonrakı xidmətinizdə uğurlar arzulayıram".



Daha sonra kursu birinciliklə bitirən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Kəklik Həbilova ilə həmsöhbət olduq. "Hərbi aşpaz hazırlığı" kursunu birinciliklə bitirdiyim üçün sevincliyəm. Uşaqlıqdan hərbiyə olan marağım orduya qatılmağımla nəticələndi. Artıq 7 ildir ki, Azərbaycan Ordusunda xidmət edirəm. Hər kəs kimi mən də qürur duyuram ki, qalib ordunun sıralarındayam. Kurs müddətində peşəkar müəllimlərimiz bizlərə aşpazlıq peşəsinin sirlərini aşıladılar. Biz onların sayəsində bu peşənin incəliklərinə yiyələndik. Öyrəndiklərimi bundan sonrakı xidmətimdə tətbiq edəcək, Vətən keşikçilərimizə ləzzətli yeməklərin hazırlanmasında əlimdən gələni əsirgəməyəcəyəm".

Kurs ikincisi əsgər Qubalı Heybətli ordu sıralarına Şamaxı rayonundan çağırılıb. "Hazırlıq kursunda müəllimlərimiz tərəfindən yeməklərin düzgün hazırlanma qaydaları, ərzaq məhsullarının emalı zamanı əmələ gələn tullantıların normaları, texnoloji avadanlıqlardan düzgün istifadə edilməsi, sanitariya-gigiyena tələblərinə ciddi riayət edilməsi və digər mövzular üzrə dərslər keçirildi. Biz də öz növbəmizdə keçirilən dərsləri yüksək səviyyədə mənimsədik."

"Hərbi aşpaz hazırlığı" kursunu üçüncü yerdə bitirən əsgər Mustafa Usubov 6 aydır ki, müddətli həqiqi hərbi xidmətdədir. "Digər yoldaşlarım kimi mən də kursu uğurla başa vurduğum üçün qürurluyam. Bundan sonrakı xidmətimdə bu sahədə bilik və bacarıqlarımı təkmilləşdirəcək, əsgər yoldaşlarıma dadlı və ləzzətli yeməklərin hazırlanmasında üzərimə düşən vəzifənin öhdəsindən gəlməyə çalışacağam."

Daha sonra kursu müvəffəqiyyətlə bitirən hərbi qulluqçulara və mülki işçilərə sertifikatlar təqdim edildi.

Sonda məzunlarla xatirə şəkli çəkdirildi.

**Leytenant Elçin İMANOV,**
**"Azərbaycan Ordusu"**

---

## *Medallı igidlərimiz*

# “Qələbəyə təşnəlik Azərbaycan əsgərinin ruhundadı...”

Müharibə kəlməsi eşidənin ürəyini titrədir. İllərdi Azərbaycan müharibə olmasın deyə torpaqlarımızın işğaldan sülh yolu ilə azad edilməsi üçün danışıqlar aparırdı. ATƏT-in Minsk Qrupu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini ya həll edə bilmədi, ya da həll etmək istəmədi. 2020-ci ilin sentyabrında Azərbaycan Ordusu düşmənin müxtəlif istiqamətlərdən hücumunun qarşısını qətiyyətlə aldı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmri ilə əks-hücum əməliyyatı başladı. Bu, Vətən müharibəsi oldu. Hamı bu müharibədə iştirak etmək, illərdi gözlənilən qələbəni tezləşdirmək istəyirdi. Minlərlə gənc döyüşlərdə iştirak etmək üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə rayon şöbələrinə müraciət etmişdi. Göygöl rayonu Hacı Məlik qəsəbəsində anadan olmuş 24 yaşlı Orxan Hüseynov da bu niyyətlə gecəni səhər eləmişdi. Sentyabrın 28-də onu da təlim mərkəzinə göndərdilər.

Orxan hərbi xidmətdə 5 il əvvəl olmuşdu. Atıcı silahların istismar xüsusiyyətlərini yaxşı mənimsəmişdi. Təlim mərkəzində qısamüddətli təkmilləşmə keçdilər. Hər gün aylarca uzanırdı elə bil - döyüşə can atırdılar. Orta məktəbdə oxuyanda tarixi çox sevib Orxan. Ermənilərin Qafqazda nə vaxt, niyə məskunlaşdırıldığını da bilirdi, məskunlaşandan sonra burada Bağanis-Ayrımda, Meşəlidə, Qaradağlıda, Xocalıda törədilmiş vəhşiliklər haqqında da eşitmişdi. Müəllimindən "Azərbaycandan Ermənistana nə qədər torpaq verilib. Onda Sovet hökuməti vardı. Bəs indi? Niyə torpaqlarımızı döyüşərək geri qaytarmırıq?" - soruşmuşdu. Onda müəlliminin əli Orxanın çiyninə enmişdi: "Ali Baş Komandanın əmri ilə döyüşəcəyik, torpaqlarımızı işğaldan azad edəcəyik, Orxan." "Məktəblilər nə edəcək?" - Orxan soruşmaq istədi, soruşmadı...



Ali Baş Komandanın əks-hücum əmri Vətən müharibəsinin başlanğıcı idi. Orxan Hüseynov da Vətən müharibəsində iştirak edirdi. Sürücü kimi...

Füzuli istiqamətində döyüşürdülər. Düşmən olduqca ciddi müqavimət göstərirdi. Döyüşçülərimiz komandanlığın əmri ilə müəyyən manevrlər edir, hücumu daha da sürətləndirirdilər. Orxan Hüseynov döyüşün içinə hərbi sursat daşıyırdı.

"Döyüş mövqeyinə az qalmış qarşımıza bir mərmi düşdü. Qorxdummu? - etiraf edim ki, bir az qorxdum. Bu qorxu can qorxusu deyildi. Komandir demişdi ki, döyüşçülərimizin sursatı azalır, onlara sursat çatdırılmalıdı. Əmrin yerinə yetirilməməsinin qorxusuydu. Maşını saxlamadım, sola meyilləndirib hərəkəti davam etdirdim. Çatanda taqım komandirinin çıxışlarında bir şükranlıq gördüm. Sən demə, idarə etdiyim yük maşınının qənşərinə mərmi düşdüyünü müşahidə edibmişlər..." - Orxan Hüseynovun səsində ötəri bir həyəcan hiss olunur. Neçə aylar əvvəlin döyüş epizodu onu indi də həyəcanlandırır; qələbəyə təşnəlik Azərbaycan əsgərinin ruhundadı...

Xocavənd uğrunda gedən döyüşlərdə də iştirak edib. Onun xidmət etdiyi hərbi hissə Şuşa istiqamətinə göndərilib, bu istiqamətdə döyüşüblər.

"Daşaltı döyüşlərindən əvvəl komandirimiz bizə 1992-ci ilin dekabrını, Daşaltı əməliyyatını xatırlatdı. O döyüşlərdə Daşaltıdakı düşmənləri məhv etməliydik, şəhid olanlarımızın qisasını almaq üçün döyüşməliydik. Daşaltıda ağır itki verən düşmən geri çəkildi...", - Orxanın baxışlarında gördüyüm ruh zəfər ruhu idi...

Noyabrın 8-də Şuşa işğaldan azad edildi. Şuşa döyüşləri haqqında xarici mətbuatda yazılanlar Azərbaycan əsgərinin döyüş hazırlığına, qələbə ruhuna həsəddi. Rusiya mətbuatında ictimailəşdirilən bir məqalə də bu həsədin nəticəsidir.

Bu əməliyyat 44 gün davam edən Vətən müharibəsini başa çatdırdı. Qaliblərin sırasında Orxan Hüseynov da var. O, Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

*Tarix yazan oğullar*

# Şəhidlərimiz ən ali qürur mənbəyimizdir

*Şəhidlik Vətən, torpaq, böyük amallar uğrunda candan keçmək, özünü bu yolda qurban verərək ömür payını gələcək nəsillərin xoşbəxtliyinə bağışlamaqdır.*



Şəhidlik uca bir zirvə olmaqla yanaşı, həm də bir məktəbdir. Elə bir məktəb ki, biz o məktəbdən igidliyi, mərdliyi, cəsurluğu, Vətən uğrunda candan keçməyin nə olduğunu öyrənirik. Hər dəfə şəhid məzarlarını ziyarət edərkən zirvənin əlçatmaz olduğu qədər də qürurverici bir məqam olduğunu dərk edirik. Həyatda ən böyük xoşbəxtlik də elə Vətən yolunda şəhid olmaqdır. Lakin hər bir insana da şəhid olmaq, o əlçatmaz zirvəyə ucalmaq nəsib olmur... Bu gün bizim qürur mənbəyimizə çevrilən şəhidlərimizlə gənclərimiz və eləcə də bütövlükdə Azərbaycan xalqı fəxr edir. Bu gün hər bir ölkə vətəndaşı "Bu Vətən bizimdir" deyib canını Azərbaycanımızın ərazi bütövlüyü naminə qurban verən igid və mərd oğullarını yaxından tanımalı, onların əziz xatirələrini həmişə yad etməlidir. Şəhidlərimiz hər zaman bizim qəlbimizdədir, onlar ürəklərdə yaşayıb, yaşayır və yaşayacaq! Unutmayaq ki, onlar ən ali qürur mənbəyimizdir.



Payızda başlamışdı Vətən müharibəsi, elə payızda da sona yetdi. 44 günlük Vətən savaşı 30 illik işğala son qoymaqla tarixə Böyük Zəfərlə yazıldı. Bu Zəfərin qazanılmasında yüzlərlə Vətən oğlu qəhrəmanlıq, igidlik nümunələri göstərdilər. Belə cəsur oğullardan biri də sərkərdələr diyarı kimi tanınan Lənkəranda doğulub boya-başa çatan şəhid Əli Mehdizadədir. Bu torpaq Səməd bəy Mehmandarov, Həzi Aslanov kimi görkəmli sərkərdələr yetirib. Onlar qəhrəmanlığı, döyüşkənliyi ilə, hərb elminin bilicisi kimi, Azərbaycanımızı dünyada tanıdıblar. Vətən müharibəsində də onlarla lənkəranlı gənc ata-babalarının qəhrəmanlıq, döyüşkənlik ənənələrini davam etdirdilər. Cəsurluğu, qorxmazlığı ilə tanınan Əli də onların sırasında idi...

Göy Xəzərin sahilində yerləşən, yaşıllıqlarla əhatələnən Lənkəran doğma şəhid övladlarını öz qoynuna almışdı. Yağışın nuru çilənirdi bərli-bəzəkli, güllü-çiçəkli şəhid məzarlığına... Adları əbədi, xatirələri əziz olan o oğullar Vətənimizi bütövləşdirərək, tarixi ədaləti bərpa etdilər.

Əli Mehdizadə 15 avqust 2001-ci ildə Lənkəran şəhərində dünyaya göz açmışdı. Ailədə dörd uşaq - üç oğul, bir qız övladı böyüdürdü Sara xanım. Qəmsiz, kədərsiz, qayğısız. Əli evin böyük uşağı idi. Lap kiçik yaşlarından ağıllı, tərbiyəsi ilə seçilib Əli. Lənkəran şəhəri 1 saylı tam orta məktəbində təhsil alıb. O, 6-cı sinfi Türk liseyində oxuyub. Bu lisey onun dünya görüşünün formalaşmasında böyük rol oynayıb. Orta məktəbdə oxuduğu zaman xüsusi fəallığı ilə digər yaşıdların-dan fərqlənib. 20 Yanvar faciəsi, Xocalı soyqırımı, torpaqlarımızın işğalı haqqında məlumatlar Əlidə düşmənə nifrəti daha da artırıb. Fars, ingilis dillərini yaxşı mənimsəyib. Eləcə də Quranı fars dilindən oxumağı bacarırdı. Onu da qeyd edim ki, atası Birinci Qarabağ müharibəsində iştirak edib. Qarabağ müharibəsi veteranıdır.

Əli 2019-cu ilin oktyabrında həqiqi hərbi xidmətə yollanır. Azərbaycan Ordusunda Vətənə övladlıq borcunu yerinə yetirir. Çətin təlimlərdə uğurlu nəticələr qazanır. Dəfələrlə fəxri fərmanlara layiq görülür. Mənəvi-psixoloji, döyüş və fiziki hazırlıqları ilə digər əsgər yoldaşlarından fərqlənir. Hündürboylu bu cəsur cüssəli əsgər məntiqi, eləcə də səbirli və təmkinli olması ilə komandirlərinin rəğbətini qazanmışdı. Vətən müharibəsi başlayanda döyüş meydanında komandirlərinin tapşırıqlarını uğurla yerinə yetirən Əli Murov yüksəkliyinin alınmasında, Xocavənd, Hadrut, Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak edir. Cəbrayıl uğrunda gedən döyüşlərdə sinəsindən və kürəyindən aldığı qəlpə yarasına baxmayaraq, döyüş yoldaşlarının yanına tələsir. Noyabrın 1-də Şuşa uğrunda gedən döyüşlərdə Daşaltı kəndi istiqamətində Əli şəhadətə qovuşur. Onun hərbi biletindən oxuyuram: "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə, Şuşa şəhəri ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı güllə yarasından həlak olub."

Əlinin ən böyük arzusu müharibədən sonra əsgəri xidmətini başa vurub, Azərbaycan Ordusunda xidmətini davam etdirmək idi... Rəşadətli Azərbaycan Ordusunun igid əsgəri Əli Mehdizadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında iştirak edərək, şəxsi igidlik və şücaət göstərdiyinə görə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub. Bütün bunlar şəhidlik zirvəsində əbədi məkan quran Əli haqqında mənim bildiklərimdir.

Kədərli gözləri vahid bir nöqtəyə dikilən Sara xanım "Əli haqqında çox danışmaq olar" deyib kövrəldi. "Vətənpərvərlik hissi, döyüş ruhu lənkəranlı gənclərdə hər zaman yüksək səviyyədə olub və bundan sonra da belə olacaq. Əli ilə bir ana kimi həmişə qürur duymuşam. O, Azərbaycan əsgərinin şərəfli adına layiq, Hərbi Andına sadiq bir əsgər kimi sonadək döyüşdü. Əlinin silahı Aprel döyüşlərində şəhid olan bir hərbi qulluqçunun silahı olub. Bu səbəbdən də o silahı çox əzizləyərdi. Çox istəyirdi ki, tez bir zamanda torpaqlarımız işğaldan azad olunsun. Hər bir əsgər başuca, alnıaçıq, qələbə ilə geri dönsün. Onu da qeyd edim ki, gözəl, səliqəli xətti var idi. Şeirlər yazırdı. Orta məktəbdə oxuyanda riyaziyyat fənnini çox sevirdi. Oğlum Murad Mehdizadə də Hərbi And içərək Azərbaycan Ordusunun "N" hərbi hissəsində 9 aydır ki, Vətənin keşiyində dayanır. İnanıram ki, Əlinin qəlbində qalan arzularını Murad gerçəkləşdirəcək".

Dayısı Elsevər Fərzullayev Əli ilə hər zaman fəxr etdiyini dedi: "Əli çox istəkli oğul idi. Yaşının az olmasına baxmayaraq fikirləri, düşüncələri elə bil ki, onu daha da böyütmüşdü. Hərbi xidmətə yollananda da qarşısına bir məqsəd qoymuşdu: Azərbaycan Ordusunun əsgəri olacaq və heç bir çətinlikdən qorxmayacaq. Elə də oldu. Komandirləri Əlinin çox vətənpərvər, bacarıqlı, hazırlıqlı bir əsgər olduğunu deyirdilər. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

Əlinin xalası Minayə Hüseynova isə onun yoxluğu ilə hələ də barışa bilmədiyini bildirdi: "Əli nəslin ilk nəvəsi olduğuna görə daha istəkli idi. Bayramlarda, əziz günlərdə hər birimizi ayrı-ayrılıqda təbrik edərdi. Çox ağıllı, müdrik uşaq idi. Dostları çox, əhatəsi geniş idi. Elə bil Allah onu uca zirvə üçün yaratmışdı..."

Söhbətimizi şəhidin kiçik qardaşı Əhmədin, həm sinif yoldaşı, həm də yaxın dostları olan Rəşad Əlizadənin, İsmayıl İbrahimovun, İsrafil Xasıyevin Əli barədə söylədikləri xoş, şirin xatirələri ilə davam etdiririk...

Zaman ötür, fəsillər dəyişir, illər əsrlərə, əsrlər minilliklərə çevrilir, tarixə dönür. Bu illər ərzində bir çox tarixi hadisələr baş verir. Bəziləri müəyyən dövrdən sonra yaddaşlardan silinir, unudulur. Lakin elə tarixi hadisələr də var ki, heç vaxt unudulmur. Qərinələr ötsə də, nəsillər bir-birini əvəz etsə də, öz qanları ilə dastan yazan şəhidlərimiz, torpaq uğrunda canından keçən Əli kimi oğul və qızlarımız heç vaxt unudulmurlar. Ən ali, müqəddəs və şərəfli olan şəhidlik zirvəsinə yüksələnlər daim qəlblərdə yaşayırlar. Uca Yaradanın, Vətənin, xalqın yolunda canlarını fəda edənlər hər zaman hörmətə layiqdirlər.

Hər birimizin qəlbində müqəddəs bir hiss - Vətənə, torpağa olan məhəbbət yaşayır. Vətən, torpaq sevgisi insanın qəlbinə hakim kəsilən, özündən asılı olmadan yaranan bir ümmandır. Hər kəs bu dünyaya göz açdığı anda ilk olaraq anasını görürsə, ilk qədəmlərini də Vətən torpağında atır və torpaq sevgisinin hərarətini də elə bu zaman duyur. Bu hərarət zaman keçdikcə o qədər artır ki, insan bir an da belə Vətənsiz yaşaya bilmir. Bu amal uğrunda gözünü qırpmadan, ölümün gözünə dik baxan Vətən övladlarını yad etmək, xatirələrini əziz tutmaq hər birimizin ən müqəddəs borcudur. Bu gün şəhidlər bizim həm nisgilimiz, kədərimiz, ürək ağrımız, həm də qürur yerimiz, fəxrimizdir. Gənc nəslə qürur yerimiz olan şəhidlərimizi tanıtmaq, onları vətənpərvərlik ruhunda böyütmək, torpağına bağlı, xalqına hörmət hissi ilə tərbiyə etmək isə hər bir ölkə vətəndaşının ən ümdə vəzifəsidir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Xəbərlər:
## hadisələr, faktlar

### "AKINCI PT-2" pilotsuz aparatına tətbiq olunan qabaqcıl sistemin testi uğurla sınaqdan çıxıb



Türkiyənin milli istehsal sistemində özünə mühüm yer qazanan pilotsuz aparatların təkmilləşdirilməsi davam edir.

"AKINCI PT-2" pilotsuz aparatına tətbiq olunan qabaqcıl sistemin testi uğurla başa çatıb.

Bu barədə "Baykar makina" tərəfindən bu şirkətin "Twitter" sosial şəbəkə hesabından testi əks etdirən videomaterial paylaşılıb.

### 2020-ci ildə dünyada 65 jurnalist qətlə yetirilib



"Jurnalistlərin Beynəlxalq Federasiyası" təşkilatının yeni təqdim etdiyi hesabata əsasən, 2020-ci ildə dünyada 65 jurnalist qətlə yetirilib ki, bu da 2019-cu il ilə müqayisədə 17 nəfər çoxdur.

Ötən il jurnalistlər üçün təhlükəli ölkə Meksika və Əfqanıstan hesab olunub. İl ərzində hər iki ölkədə 10 jurnalist qətlə yetirilib. Pakistan, Hindistan və Suriyanın adları da jurnalistlər üçün təhlükəli ölkələr siyahısına salınıb.

Təşkilatın hesablamalarına görə, 1990-cı ildən bu günə kimi dünyanın müxtəlif yerlərində 2680 nəfər jurnalist qətlə yetirilib.

### Qazaxıstanda hərbi təyyarənin qəzaya uğraması nəticəsində dörd nəfər həlak olub



Qazaxıstanda hərbi təyyarənin qəzaya uğraması nəticəsində dörd nəfər həlak olub, iki nəfər xəsarət alıb. Xəsarət alanlar dərhal xəstəxanaya yerləşdiriliblər.

Bu barədə Qazaxıstanın Fövqəlade Hallar Nazirliyi məlumat yayıb.

Martın 13-də saat 17:25 radələrində Almatı aeroportunun növbətçi xidmətindən verilən məlumata görə, Nur-Sultan-Almatı istiqamətində hərəkət edən "An-26" tipli hərbi təyyarə radarlardan itib.

Hadisə ilə əlaqədar araşdırma aparılır.

### Əfqanıstanda terror aktı törədilib



Ötən gecə Əfqanıstanın Herat şəhərində 8 nəfərin ölümü, 68 nəfərin isə xəsarət alması ilə nəticələnən terror aktı baş verib.

Avtomobilə yerləşdirilən bomba əhalinin sıx olduğu yerdə partladılıb. Partlayışın təsirindən ətrafdakı 15 evə ciddi ziyan dəyib.

Əfqanıstan mətbuatının yaydığı xəbərlərə görə, ölənlər arasında 3 uşaq və 2 qadın var.

Xüsusi xidmət orqanları terror aktı ilə bağlı təhqiqat aparırlar.

### İraqda ABŞ hərbçilərinə silahlı hücum olub



İraqda ABŞ-ın hərbi avtomobil karvanına silahlı hücum olub. Ölən və yaralananlar barədə hələlik məlumat verilməyib.

Bəsrədən Nüsriyyə bölgəsinə hərəkət edən avtomobil karvanına bombalar atılıb.

Cari ay ərzində İraqdakı ABŞ hərbçilərinə qarşı dörd dəfə silahlı hücum olub. Silahlı qruplar ABŞ hərbi bazalarına göndərilən maddi-texniki vəsaiti məhv etməyə çalışırlar.

Adı çəkilən kanal bildirir ki, əhali ilə yanaşı, İraqda fəaliyyət göstərən siyasi qruplar da ABŞ hərbçilərinin ölkədən çıxarılmasını tələb edirlər.

**AZƏRTAC-ın materialları əsasında**

## Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsinə sovqat təqdim olunub

Naxçıvan Muxtar Respublikasında bayram günləri ərəfəsində hərbi hissələrə sovqat aparılması ənənəsi xalq-ordu birliyinin təcəssümüdür. Ənənəyə uyğun olaraq Novruz bayramı ərəfəsində Naxçıvan əhalisi, müxtəlif dövlət qurumları, müəssisə və təşkilatlar, ayrı-ayrı sahibkarlıq subyektləri hərbi hissələrə baş çəkir, əsgərlərə sovqat aparırlar.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, xalq-ordu birliyini daha da möhkəmləndirən və şəxsi heyətdə ruh yüksəkliyi yaradan tədbirlərin davamı olaraq "Sumqala Tikinti Təchizat" Məhdud Məsuliyyətli Cəmiyyətinin rəhbəri Kazım Mehdiyev tərəfindən Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsinə 1000 kiloqram üzüm qurusu təqdim edilib.

Adı çəkilən müəssisənin Nehrəm üzümçülük təsərrüfatında yetişdirilmiş məhsulları hərbi hissənin anbarlarına təhvil verilib.

*Məişət*

# "İşimizə məsuliyyətlə yanaşırıq..."



*Hərbi hissədə əsgər yataqxanalarında gördüyümüz səliqə-sahman, döşək üzlərinin və dəsmalların təmizliyi diqqətimizdən yayınmadı. Belə təmizlik görənə də, bu təmizlik içində yaşayana da xüsusi zövq verir. Zabit və əsgərlərdən öyrəndik ki, döşək üzləri, dəsmallar və hərbi qulluqçuların məişəti üçün zəruri olan əşyalar hərbi hissənin camaşırxanasında yuyulur. Burada çalışanlar zabit və əsgərlərimizə böyük diqqət göstərirlər. Şəxsi heyətə rahatlıq və təmizlik bəxş edən kollektivlə görüşmək üçün camaşırxanaya üz tutduq.*

Əvvəlcə hamam-camaşırxana kombinatının rəisi, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Şahmar İzanovla görüşdük. O dedi ki, camaşırxanada çalışanların hamısı qadınlardır. "Onlar işlərinə diqqət və məsuliyyətlə yanaşırlar. Üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirirlər. Yaxşı bilirlər ki, bu camaşırlardan zabit və əsgərlərimiz istifadə edirlər. Ona görə də daha böyük məsuliyyətlə çalışırlar. Hamam-camaşırxanamız ən müasir qurğu və avadanlıqlarla təchiz olunub. Bu da bizə imkan verir ki, işlərimizi daha rahat və rəvan görək".

Kollektivin işi ilə yaxından tanış olduq. Öyrəndik ki, camaşırlar əvvəlcə çeşidlənir, yuyulur, qurudulur və ütüləndikdən sonra bölüklərə qaytarılır. Bu prosesdə çalışan qadınların hamısının zəhməti var. Söhbətlərimiz zamanı hiss etdik ki, qadınların ürəyi hərbçilərimizə qarşı sevgi ilə doludur.

- Uzun illərdir ki, bu hərbi hissədə çalışıram. Çünki yurdumuzun müdafiəsində dayanan zabit və əsgərlər üçün çalışmaq həm borcumuz, həm də vəzifəmizdir, - deyə Xalidə Nəsirova bizimlə söhbətə başladı. - Camaşırları və hərbi formaları yuyub, ütülədikcə, düşünürəm ki, bunlardan zabit və əsgərlərimiz istifadə edəcəklər. Buna görə də işimizə diqqət və məsuliyyətlə yanaşırıq. Elə bunun nəticəsidir ki, onlar həmişə ünvanımıza xoş sözlər deyirlər. Hərbçilərimizə övladımız kimi baxırıq. Bir müddətdən sonra özüm də əsgər anası olacağam. Oğlum on yeddi yaşın içindədir. Bir ildən sonra o da taytuşları kimi əyninə əsgər forması geyinib, Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirəcək.

Zabit və əsgərlərimizə diqqətlə yanaşan kollektivlə yaxından tanış olduqdan sonra hiss etdik ki, həqiqətən də, onlar xoş sözlərə layiq işlər görürlər.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# "Tulpar" zirehli döyüş maşını




*Piyadaların tırtıllı, zirehli döyüş maşını "Tulpar" OTOKAR Otobus Karoseri Sanayi A.S. müəssisəsində Türkiyənin quru qoşunlarının potensial tələblərini təmin etmək üçün hazırlanıb. Tulpar ("Tolpar") türk xalqları mifologiyasında uçan qanadlı at deməkdir. İlk dəfə zirehli döyüş maşını 2013-cü ildə İstanbulda keçirilən İDEF beynəlxalq müdafiə sərgisində nümayiş etdirilib. Piyadaların döyüş maşını modul inşaya malikdir və müxtəlif xüsusi maşınlar üçün əsas baza ola bilər. Bu zirehli döyüş maşını müasir döyüş şəraitində əsas döyüş tanklarına atəş dayağı durmaq və yüksək təhlükəli ərazilərdə piyadaların təhlükəsiz daşınmasını təmin etmək üçün hazırlanıb.*

"Tulpar" distansion idarə olunan "Mizrak-30" döyüş modulu ilə təchiz olunub. "Mizrak-30" döyüş modulunun silahlanmasına 30 mm-lik avtomat top və 7,62 mm-lik qoşa pulemyot daxildir. Həmçinin döyüş modulunun tərkibinə lazerli tuşlama sistemi ilə birlikdə dörd ədəd perspektiv L-UMTAS raketləri daxildir.

30 mm-lik avtomat topun daşınan döyüş dəsti 400 mərmidən ibarətdir. Onun 200-ü sursat lentində, 200-ü isə qablaşdırılmış şəkildə döyüş maşınının qabaq hissəsində mühərrikin arxasında saxlanılır. Avtomat top mərmiləri ikitərəfli atır. 7,62 mm-lik pulemyotun döyüş dəsti 400 patrondan ibarətdir. Əlavə olaraq 4000 patron da maşının korpusunda yerləşdirilib. Döyüş modulunda quraşdırılan nişangah cihazları günün müxtəlif vaxtlarında döyüş əməliyyatını aparmağa imkan verir. Döyüş maşınının heyəti komandir, tuşlayıcı, sürücü və tam təmin olunmuş 8 desantdan ibarətdir.

"Tulpar" modul zirehlə təchiz olunub. Onun çəkisi qorunma dərəcəsindən asılı olaraq 25, 35 və ya 40 tona qədər ola bilər. Maşının kompozit zirehi şəxsi heyəti 14,5 mm-lik kalibrli ballistik döyüş sursatlarından müdafiəni təmin edir.

Döyüş maşınının inşası ona tez bir vaxtda zədələnən zirehli paneli dəyişməyə imkan verir, həmçinin maşında iri kalibrli (25 mm-ə qədər) zirehdələn mərmilərdən qorunmaq üçün əlavə olaraq plitələr də quraşdırılıb. Bundan başqa "Tulpar" maşını kollektiv müdafiə və yanğınsöndürmə sistemi ilə də təchiz olunub. Verilən məlumata görə, maşın gövdəsinin hər hansı bir yerində partladılan 10 kiloqramlıq trotilə davam gətirə bilər.

Piyadaların zirehli "Tulpar" döyüş maşınının çəkisi 32 tondur.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Teymur Rəcəbovun "Meltvater" turnirində Maqnus Karlsenlə qarşılaşması heç-heçə başa çatıb



Dünya çempionu Maqnus Karlsenin təşkil etdiyi nüfuzlu "Champions Chess Tour" onlayn şahmat seriyasının dördüncü - "Meltvater" turnirinin ikinci yarış gününün oyunları keçirilir.

Azərbaycan şahmatçısı Teymur Rəcəbov 10-cu - bu günün sonuncu turunda Maqnus Karlsenlə üz-üzə gəlib. Şahmatçımızın dünya çempionuna qarşı ağ fiqurlarla mübarizəsi heç-heçə ilə başa çatıb. T.Rəcəbov əvvəlki dörd turda amerikalı Hikaru Nakamurla, niderlandlı Yorden Van Forestlə heç-heçə edib, növbəti oyunlarda fransalı Maksim Vaşye-Laqrav və FIDE təmsilçisi Alireza Firuzcaya məğlub olub.

## Karate 1 Premyer Liqa turnirində komandamız 4 medal qazanıb




İstanbulda Azərbaycan komandasının da qatıldığı Karate 1 Premyer Liqa turniri başa çatıb.

Azərbaycan Milli Karate Federasiyanın mətbuat xidmətinin rəhbəri Sənan Məhərrəmovun verdiyi məlumata görə, komandamız yarışı 1 gümüş, 3 bürünc medalla başa vurub. Belə ki, karateçilərimizdən kişilər arasında mübarizə aparan Firdovsi Fərzəliyev (60 kq) yarışın gümüş medalını qazanıb. Kişilərin yarışında digər karateçimiz Asiman Qurbanlı (+84) isə bürünc medala sahib olub. Turnirdə qadınlar arasında gücünü sınayan İrina Zaretska (68 kq) da üçüncü yerə layiq görülüb. Daha bir bürünc medalı isə kata komandamız (Rövşən Əliyev, İsmayıl Quliyev, Tural Balcanlı) qazanıb.

Qeyd edək ki, turnirdə federasiyanın prezidenti Yaşar Bəşirovun rəhbərliyi altında 21 idmançı iştirak edib.

Beynəlxalq hakimlərimiz - Cahangir Babayev, Vüqar Kərimov və Anar Allahverdiyev nüfuzlu Premyer Liqa turnirini idarə edənlər arasında yer alıblar. Yarışa, ümumilikdə, 75 ölkədən 865 karateçi qatılıb.

## Karateçilərimiz Portuqaliyada Premyer Liqa turnirində iştirak edəcəklər

Karate üzrə növbəti Premyer Liqa turniri Portuqliyanın Lissabon şəhərində keçiriləcək.

Aprelin 30-dan mayın 2-dək keçiriləcək yarışda Azərbaycan karateçiləri də mübarizə aparacaqlar. Yığmamız İstanbulda keçirilmiş Karate 1 Premyer Liqa turnirindən Bakıya döndükdən sonra yarışa hazırlaşacaq.

Qeyd edək ki, turnirin əvvəlcə fevralın 19-21-də təşkili planlaşdırılsa da, sonradan təxirə salınıb. Yarış Olimpiya reytinq cədvəlinə xallar qazandıracaq.

**AZƏRTAC-ın materialları əsasında**

Gizir İbrahimov Təhməz İlqar oğluna verilmiş şəxsi vəsiqə blankı itdiyi üçün etibarsız sayılır.

---

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş İsmayılov Samir Ələsgər oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini** mayor Məhəmməd ƏLİYEV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
kapitan Ruslan HƏSƏNZADƏ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 168
Nüsxə 4050